| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **11.06.2001** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **498** |
| **ADI** | **Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-06-2001, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 396)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **11.06.2001** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **010.000.000<br>020.000.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **01.07.2011** |

**Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin beşinci hissəsinə uyğun olaraq **qərara alıram:**

1. Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, həmin Əsasnamənin 5-ci bəndində nəzərdə tutulmuş bələdiyyə mülkiyyətinə verilə bilən dövlət əmlakının siyahısını iki ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.
3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 11 iyun 2001-ci il
498

Azərbaycan Respublikası Prezidentinin
11 iyun 2001-ci il tarixli 498 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında
ƏSASNAMƏ [1]

## I. ÜMUMİ MÜDDƏALAR

1. Bu Əsasnamə "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır.

2. Əsasnamə dövlət mülkiyyətində olan və bələdiyyənin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri mənzil-kommunal, sosial və mədəniyyət obyektlərinin, əhalinin ümumi istifadəsində olan obyektlərin və digər dövlət əmlakının bələdiyyələrin mülkiyyətinə verilməsi qaydasını müəyyən edir.

Qanunvericiliklə özəlləşdirilməsi qadağan edilən və Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən və ya müvafiq qərar qəbul edilənədək dövlət mülkiyyətində qalan dövlət əmlakı və onun yerləşdiyi torpaq sahələri, habelə fiziki və ya qeyri-dövlət hüquqi şəxslərinin vəsaiti hesabına inşa edilmiş obyektlərin yerləşdiyi torpaq sahələri istisna olmaqla, bələdiyyələrin ərazilərində yerləşən digər dövlət əmlakı onların mülkiyyətinə verilə bilər. [2]

3. Dövlət əmlakının bələdiyyə mülkiyyətinə verilməsi Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən əvəzsiz olaraq həyata keçirilir.

4. Bələdiyyənin mülkiyyətinə verilən əmlakın yerləşdiyi torpaq sahələrinin bələdiyyə mülkiyyətinə verilməsi "Torpaq islahatı haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və Azərbaycan Respublikasının digər qanunlarına, normativ hüquqi aktlarına və bu Əsasnaməyə uyğun olaraq həyata keçirilir.

## II. DÖVLƏT ƏMLAKININ BƏLƏDİYYƏ MÜLKİYYƏTİNƏ VERİLMƏSİ

5. Bələdiyyə mülkiyyətinə verilə bilən müəssisə və obyektlərinin, binaların, tikililərin, qeyri-yaşayış sahələrin, qurğuların və avadanlıqların, habelə ümumi istifadə obyektlərinin siyahısı və bələdiyyələrə verilməsi müddətləri hər bir bələdiyyə ərazisi üzrə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin bələdiyyələr və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

6. Bələdiyyənin mülkiyyətinə ilk növbədə onların fəaliyyətinin təmin edilməsi üçün zəruri olan inzibati binalar, otaqlar və avadanlıqlar verilir.

7. Bələdiyyə mülkiyyətinə dövlət əmlakı bələdiyyələr tərəfindən bu əmlakdan istifadə etmək imkanı yarandıqda, onların müraciəti əsasında verilir.

8. Bələdiyyə mülkiyyətinə daşınmaz dövlət əmlakının verilməsi Azərbaycan Respublikasında dövlət əmlakının Registrində müvafiq qeydiyyatlar aparılmaqla və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə , Dövlət Statistika Komitəsinə ~~və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə~~ məlumat verməklə həyata keçirilir. [3]

## III. BƏLƏDİYYƏLƏRİN MÜLKİYYƏT HÜQUQUNUN RƏSMİLƏŞDİRİLMƏSİ QAYDASI

9. Bələdiyyələr onların mülkiyyətinə verilən dövlət əmlakı üzərində mülkiyyət hüququnu aşağıdakı qaydada əlavə edirlər:

Bələdiyyə mülkiyyətinə verilən əmlakın siyahısı (o cümlədən inzibati binalar, otaqlar və avadanlıqlar) Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edildikdən sonra bələdiyyə qurumları Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə ərizə ilə müraciət edirlər; ərizəyə bələdiyyə qurumunun statusunu təsdiq edən sənədlər əlavə olunmalıdır.

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi daxil olmuş müraciətlərin əsaslığını yoxlayır.

Müraciətdə göstərilən dövlət əmlakının, o cümlədən ümumi istifadə obyektlərinin bələdiyyə mülkiyyətinə verilməsi nəzərdə tutulmuşdursa, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 10 gün ərzində müvafiq akt tərtib edilir.

Bu Əsasnamə ilə nəzərdə tutulmuş qaydada bələdiyyə mülkiyyətinə verilən daşınmaz dövlət əmlakı üzərində bələdiyyənin mülkiyyət hüququ qanunvericiliyə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır. [4]

Bələdiyyələrin ümumi istifadə obyektlərinə mülkiyyət hüququ həmin obyektlərin Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyindən təhvil-təslim aktı əsasında qəbul etdiyi andan yaranır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 23 oktyabr 2003-cü il tarixli **967** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2003-cü il, 10, maddə 572**)

2. 25 may 2006-cı il tarixli **411** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 5, maddə 409**)
3. 6 iyul 2006-cı il tarixli **426** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**)
4. 21 iyun 2007-ci il tarixli **593** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 606**)
5. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 6 iyul 2006-cı il tarixli **426** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin 3-cü, 5-ci bəndlərdə və 9-cu bəndin ikinci-dördüncü, altıncı abzaslarında ismin müxtəlif hallarında verilmiş "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri ismin müvafiq hallarında "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**) ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin 3-cü, 5-ci və 9-cu bəndlərdə ismin müvafiq hallarında "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ismin müvafiq hallarında "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

[2] 23 oktyabr 2003-cü il tarixli **967** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 10, maddə 572**) ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin 2-ci bəndinin ikinci abzası yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Qanunvericiliklə özəlləşdirilməsi qadağan edilən və ya Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin qərarı ilə özəlləşdirilən dövlət əmlakı (o cümlədən, həmin əmlak yerləşən torpaq sahələri, özəlləşdirilənə qədər dövlət mülkiyyətində qalan dövlət əmlakı və fiziki və ya qeyri-dövlət hüquq şəxslərin vəsaiti hesabına inşa edilmiş obyektlərin yerləşdiyi torpaq sahələri) istisna olmaqla, bələdiyyələrin ərazilərində yerləşən digər dövlət əmlakı onların mülkiyyətinə verilir.~~

[3] 25 may 2006-cı il tarixli **411** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 5, maddə 409**) ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin 8-ci bənddə "**və Dövlət Statistika Komitəsinə**" sözləri "**, Dövlət Statistika Komitəsinə və Nazirlər Kabinetinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə** " sözləri ilə əvəz edilmişdir.

21 iyun 2007-ci il tarixli **593** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 606**) ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin 8-ci bəndindən «**Nazirlər Kabinetinin yanında**» sözləri çıxarılmışdır.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**) ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin 8-ci bənddən "**və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə**" sözləri çıxarılmışdır.

[4] 25 may 2006-cı il tarixli **411** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 5, maddə 409**) ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin 9-cu bəndin beşinci abzası yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Daşınmaz dövlət əmlakının bələdiyyə mülkiyyətinə keçməsi mülkiyyət şəhadətnaməsinin verilməsi yolu ilə rəsmiləşdirilir. mülkiyyət şəhadətnaməsi dövlətin anadan Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən verilir. Şəhadətnamənin verilməsi üçün dövlət rüsumu tutulmur.~~

6 iyul 2006-cı il tarixli **426** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin 9-cu bəndin beşinci abzası yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Bu Əsasnamə ilə nəzərdə tutulmuş qaydada bələdiyyə mülkiyyətinə verilən daşınmaz dövlət əmlakı üzərində bələdiyyənin mülkiyyət hüququ qanunvericiliyə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.~~